# Kəngərlilər

***(Qum-Vəramin Kəngərliləri)***

Azərbaycanımızın bağrından qopmuş Oğuz boylarından biri də Kəngərlilərdir. Kəngərlər tarixdə bilinən ən əski Türklərdən olub hələ miladdan öncə 2-ci yüzilliklə bizim eranın 4-cü yüzillikləri arasında Türküstanda Sırdərya boylarında qüdrətli və varlı bir dövlət qurmuşlar. Daha sonrakı yüzillərdə Kəngərlərin bir qismi Oğuzların asılılığına düşür, qalan bölüyü isə Peçeneq Türklərinin (Biçənək, Bacanaq) tərkibinə qatılır. Lazar Parpetsi (5-ci yüzil) 482-ci il hadisələrindən danışarkən müasir Borçalının qərbini əhatə etmiş "Kəngər" adlı bir vilayətin və "Kəngər" dağlarının adını çəkir. Daha sonra 6-cı yüzil Suriya müəllifləri də dövrün hadisələrindən bəhs edərkən eyni vilayətin adını çəkmişlər. Bu Kəngərlərin Hunlarla birlikdə Azərbaycana gəldiyini güman etmək olar. Başqa bir qismi isə güman ki, Peçeneq Türklərinin tərkibində gəlmişlər və Qarabağ və Naxçıvan ərazilərində yaşamışlar. Sırdərya boyunda Oğuzların asılılığına düşmüş olan Kəngərlər "Beçenek" (Biçənə, Beçene) adı ilə Oğuzların 24 boyundan biri oldular. Böyük Səlcuqlular zamanından etibarən Oğuz köçləri ilə Azərbaycan torpaqlarına gəlmişlər. Bir neçə yüzil sonra isə Kəngərlilər qüdrətli Ustaclı elinin bir tirəsi kimi qarşımıza çıxır.

Qızılbaşlıq dövründə Kəngərli eli Səfəvilərə bir neçə adlı-sanlı əmir vermişdir. Bunlardan Əhməd Sultan Kəngərli 1526-1527-ci illərdə Şəhrivar və indiki Tehran yaxınlığındakı Vəraminin hakimi olmuşdur. Sədr-əl-Din xan adlı başqa bir Kəngərli əmiri isə 1530-1540-cı illərdə Astarabadın (indiki Gürgan) hakimi olmuş və iki dəfə Özbəklərin hücumunun qarşısını almışdır. Başqa bir Kəngərli əmiri 1590-cı illərdə Xorasan ərazisində Tun və Təbəs bölgələrinin hakimi olmuş Mustafa bəy Kəngərlidir. Mustafa bəy Kəngərli hakimi olduğu bölgəyə vaxtaşırı hücumlar təşkil edən Özbəklərə qarşı özünün azsaylı Ustaclı döyüşçüləri ilə birlikdə cəsarətlə mübarizə aparmış və ən nəhayət 1593-1594-cü illərdə əsir düşərək edam edilmişdir.

Səfəvi tarixçisi İskəndər bəy Münşi Türkman (1560-1634) I Şah Abbas dönəminin böyük əmirləri siyahısında Maqsud Sultan Kəngərlinin də adını çəkir.

Qızılbaşlar 1604-cü ildə Çuxur-Səəd bəylərbəyliyini Osmanlılardan geri aldıqdan sonra Maqsud Sultan Kəngərli Naxçıvan hakimi təyin olunur.

Naxçıvan ərazisindəki Kəngərlilərin bir çoxu güman ki, Şah İsmayıl zamanında böyük Ustaclı elinin tərkibində gəlmişlər. 19-cu yüzilə aid qaynaqlara əsasən Araz boyundakı Kəngərlilərin bir bölüyü hələ də tərəkəmə həyatı sürmüş və sayları 4,000—5,000 nəfər olmuşdur. Məhəmmədhəsən bəy Vəlili-Baharlı (1896-1937) Göyçay, Cavanşir və Şuşa qəzalarında da Kəngərli elinin yaşadığını qeyd etmişdir. Bunlardan bir çoxu I Şah Abbas tərəfindən 1604-cü ildə Arazın güneyinə köçürülmüş və sonradan yenidən bu dəfə II Şah Abbasın hakimiyyəti dövründə (1642-1666) öz yurdlarına qayıtmış olan Kəngərlilərdir. Bu gün, Arazın güneyində Qaradağ ərazisində Qaracadağ ellərindən Hacı Əlili tayfasının bir tirəsi Kəngərli adlanır. 1960-cı ilə aid bir qaynağa görə həmin bu Qaradağ Kəngərlilərinin Tərəkəmə olanları 25 ocaq olmuşlar. Bundan başqa, yenə həmin yerlərdə Meşkinşəhrin 24 km quzeyində Kəngərli adlı bir oba da var. Bunlar 1604-cü ildə buralara köçürülmüş olan Kəngərlilərdən qalma soylardır.

Kəngərlilərin başqa bir bölüyü də Güney Azərbaycanda Salmas və Xoy arasında yaşayır və burada Kəngərli adını daşıyan bir oba da var.

Təbriz yaxınlığındakı Ucan şəhəri ətrafında da Kəngərli adında bir oba var. Bu son iki Kəngərli bölüyünün buralarda haçan yurd saldığı dəqiq bilinmir.

Və ən nəhayət, İran adlanan ölkənin mərkəzi ərazilərində — Qum-Vəramin bölgəsində də Kəngərli elinin bir hissəsi yaşayır. 1809-cu ilə aid bir qaynaqda bu Kəngərli elinin sayı 1,000 nəfər olaraq qeyd olunur. M. L. Şeyl 1849-cu ildə bu Kəngərlilərin Qaraçorlular və Dəmavənd Ərəbləri ilə yaşadıqlarını və 1,000 alaçıqdan ibarət olduqlarını xəbər vermişdir. Sovet coğrafiyaçı və etnoqrafı Solomon Bruk (1920-1995) 1950-ci illərdə Qum-Vəramin Kəngərlilərinin sayını 30,000 nəfər olaraq təxmin etmişdir. Bugünkü sayları bilinmir.

---

**© ATB — Azərbaycan Türkçülər Birliyi**